# Fəxrəddin Teyyubun "Ruhların sevinən günü" təqdim olundu




"Əziz oxucum, səni yormaq istəmirəm, körpə nəfəsi kimi təzə-tər kitabım sənə əmanət və ərməğan olsun. Misralarımdan ruhumun boylandığını görəcəksiniz. Sözə təşnə olan ürəyimin çırpıntılarını eşidəcəksiniz. Yetər ki, oxuyasan..." Bu sətirlər tanınmış şair Fəxrəddin Teyyubun yenicə çap etdirdiyi "Ruhların sevinən günü" adlı şeirlər kitabına özünün yazdığı ön sözdəndir. Elə mayın 12-də Yazıçılar Birliyinin Natəvan klubunda sözügedən kitabın təqdimat mərasimində çıxış edən qələm dostları da daha çox kitaba daxil edilən şeirlərdən əsl şair ruhunun boylandığını, ürəyinin çırpıntılarının duyulduğunu dilə gətirdilər. Tədbirin aparıcısı, AYB-nin katibi Səlim Babullaoğlu, AYB-nin katibi, yazıçı Elçin Hüseynbəyli, görkəmli yazıçı Seyran Səxavət, Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı qeyd etdilər ki, Fəxrəddin Teyyub, S.Səxavətin təbirincə desək, bütün qələm adamları kimi "sözün belindən gələnlərdəndir". Onun şeirləri ruhun duaları kimidir.

Şair və yazıçılardan Murad Köhnəqala, Yusif Nəğməkar, Qəşəm Nəcəfzadə, Tahir Taisoğlu, Ağacəfər Həsənli, Balayar Sadiq, İbrahim İlyaslı, hüquqşünas Mehman Mehmanov və başqaları çıxış edərək təqdim olunan kitabın bədii məziyyətlərindən söz açdılar.

Sonda Fəxrəddin Teyyub tədbirin keçirilməsinə yaratdığı şəraitə görə AYB-nin rəhbərliyinə, qələm dostlarına minnətdarlığını bildirdi, yeni şeirlərini oxudu.

***Sərvaz Hüseynoğlu***

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 14 may.- S. 31.**